# ALLAH BİZİMLƏ MÜQƏDDƏS KİTAB VASİTƏSİLƏ DANIŞIR

EVDƏ EDİLƏCƏK DƏRSLƏR





## VİDEOYA BAXIN

Uşaqlarla birlikdə “Allah dünyanı yaratdı” adlı videoya baxın. Bunu aşağıdakı linkdə tapa bilərsiniz:
https://vimeo.com/showcase/4770708/video/210999824



## MÜZAKİRƏ ÜÇÜN

Uşaqlardan soruşun: **Televizorda baxdığınız digər proqramlarla Müqəddəs Kitabdan olan hekayələr arasında nə kimi fərqlər var?**

Uşaqların bu barədəki fikirlərini dinləyin, sonra qeyd edin ki, Müqəddəs Kitabda həqiqətən baş vermiş hadisələr haqqında danışılır və bu hekayələr bizə Allah haqqında öyrədir. Qoy uşaqlar bilsinlər ki, Deditos videoları birbaşa Müqəddəs Yazılardan götürülmüş hekayələrdir.



## İŞ VƏRƏQİ

Uşaqlara Müqəddəs Kitab modeli hazırlamağa kömək edin. Bunun üçün iş vərəqini bir dəfə yuxarıdan aşağıya, bir dəfə də soldan sağa qatlayın. Üz qabığında “Müqəddəs Kitab” sözləri olmalıdır. Kiçik uşaqlar kitabçanın səhifələrində şəkillər (iş vərəqi nümunələri təqdim edilmişdir) yapışdıra bilərlər. Böyük uşaqlar videodan səhnələr çəkə bilərlər.



## ƏSAS AYƏ

*Müqəddəs Kitabdakı hər şey Allahın Kəlamıdır.*
2 Timoteyə 3:16a

Müqəddəs Kitabdakı
hər şey
Allahın Kəlamıdır.

2 Timoteyə 3:16a

Allah Dünyanı Yaratdı
Dərs 1

# Müqəddəs Kitab

















# BİZ ALLAHI ONUN YARATDIQLARI VASİTƏSİLƏ TANIYIRIQ

Deditos
EVDƏ EDİLƏCƏK DƏRSLƏR





## İŞ VƏRƏQİ

Uşaqlara yan tərəflərində bu ifadələr yazılmış qutu hazırlamağa kömək edin: **Allah xeyirxahdır, Allah güclüdür, Allah müdrikdir, Allah yaradıcıdır.** Siz bu dərsdə olan nümunədən və ya əlinizdə olan materiallardan istifadə edə bilərsiniz. Açar ayəni qutunun içinə qoyun (iş vərəqində göstərilmişdir).

## ƏSAS AYƏ

*Allahın sonsuz qüdrəti və xasiyyəti görünə bilməz. Lakin yaradılışın əvvəlindən Allah bütün yaratdıqları ilə bunların necə olduğunu göstərdi. Romalılara 1:20*



## YARADILANLARI MÜŞAHİDƏ ETMƏK

Uşaqları elə yerə aparın ki, orada onlar Allahın yaratdıqlarına baxa və onları öz qutularına toplaya bilsinlər. Onlarla birlikdə Allahın müxtəlif çiçəklər, yarpaqlar, bitkilər, həşətarlar və daşların rənglərində, ölçülərində və formalarında görünən heyrətamiz yaradıcılığını seyr edin. Əgər çölə çıxa bilmirisnizsə, evin içində tanış ola biləcəyiniz təbii obyektləri axtarın.





## MÜZAKİRƏ ÜÇÜN

Uşaqlardan Allahın yaratdıqlarına əsaən Onun haqqında nə öyrəndiklərini soruşun. Məsələn, Allahın yaratdığı nəhəng şeylərə baxdıqda Onun əzəmətini və qüdrəti haqqında öyrənə bilərik. Uçan və ya divarlara dırmaşan həşərfatlara baxdıqda Allahın müdrikliyini görürük. Allahın yaradıcılığı və xeyirxahlığı, yaratdıqlarının heyrətamiz müxtəlifliyində görünür.

**Allah güclüdür**

ALLAH MÜDRİKDİR

Allahın sonsuz qüdrəti və xasiyyəti görünə bilməz. Lakin Allah yaradılışın əvvəlindən bunların necə olduğunu bütün yaratdıqları ilə göstərmişdir.

Romalılara 1:20

Allah Dünyanı Yaratdı
Dərs 2

ALLAH YARADICIDIR

**Allah xeyirxahdır**

**Allah güclüdür**

ALLAH MÜDRİKDİR

Allahın sonsuz qüdrəti və xasiyyəti görünə bilməz. Lakin Allah yaradılışın əvvəlindən bunların necə olduğunu bütün yaratdıqları ilə göstərmişdir.

Romalılara 1:20

Allah Dünyanı Yaratdı
Dərs 2

ALLAH YARADICIDIR

**Allah xeyirxahdır**

# ALLAH İNSANI ÖZ SURƏTİNDƏ YARATDI

Deditos
EVDƏ EDİLƏCƏK DƏRSLƏR

SERİYA 1: ALLAH DÜNYANI YARATDI　　　DƏRS 3



## VİDEOYA BAXIN

Uşaqlarla birlikdə “Allah dünyanı yaratdı” adlı videoya baxın. Bunu aşağıdakı linkdə tapa bilərsiniz:
https://vimeo.com/showcase/4770708/video/210999824



## MÜZAKİRƏ ÜÇÜN

Bunu yüksək səslə oxuyun: **Allah hər bir insanı (kişiləri, qadınları, gəncləri və uşaqları) xüsisi şəkildə və Özünə bənzər yaratdı. Buna görə də hər bir insan hörmətə layqdir və onlarla layiqincə rəftar etmək lazımdır.** Uşaqlardan soruşun, elə birini tanıyırlarmı ki, hər hansı səbəbdən onlarla pis rəftar edirlər və ya insanlar onlara xor baxırlar. **Bu cür insanlara onların çox dəyərli olduqlarını necə göstrə bilərik?**



## İŞ VƏRƏQİ

Kiçik uşaqlar iş vərəqindəki kiçik barmağı özlərinə oxşar şəkildə rəngləməlidirlər, sonra isə “Onlar Allahın surətində yaradılıblar” yazılan yerdə öz adlarını yazmalıdırlar.

Böyük uşaqlar başqaları tərəfindən qiymətləndirilmədiyi üçün pis rəftar edilən insanı göstərən şəkil çəkməlidirlər. Sonra isə həmin insana sevgi və hörmət göstərən ya şəkil çəkməli ya da sözlər yazmalıdırlar.




## ƏSAS AYƏ

*Beləliklə, Allah insanı Öz surətində yaratdı; O, kişini və qadını yaratdı. Allah onlara xeyir-dua verdi...* Yaradılış 1:27-28a





Beləliklə, Allah insanı Öz surətində yaratdı; O, kişini və qadını yaratdı. Allah onlara xeyir-dua verdi...

Yaradılış 1:27-28a

Mənim adım______________.

Allah məni Öz surətində yaradıb.

# ALLAH AİLƏNİ YARATDI

Deditos
EVDƏ EDİLƏCƏK DƏRSLƏR

SERİYA 1: ALLAH DÜNYANI YARATDI — DƏRS 4



## HEKAYƏNİ YENİDƏN YENİDƏN ƏYLƏNİN

Uşaqlara Adəm və Həvvanı düzəltmək üçün öz yaradıcılıq bacarıqlarından istifadə etməyə imkan yaradın. Onlar videodakı Adəm və Həvvaya bənzətmək üçün gil, plastilin və dondurma çubuqlarından istifadə edə ya da öz barmaqlarında göz və ağız çəkə bilərlər. Uşaqlara xatırlatın ki, Allah Adəmi yerin tozundan yaratdı və ona həyat üfürdü. Eləcə də Allah insan üçün tək qalmağın yaxşı olmadığını söylədi və buna görə də Adəmin qabırğalarından birini istifadə edərək ona uyğun Həvvanı yaratdı. Bu hekayəni Yaradılış 2-ci fəsildə tapmaq olar.



## MÜZAKİRƏ ÜÇÜN

Uşaqlardan soruşun, onların fikrincə, nə üçün Allah dedi ki, Adəmin tək qalması yaxşı deyil. Onların fikirlərini dinləyin. Əgər onlar aşağıdakı fikirləri səsləndirməsələr, onlara bildirin ki, Allah ailəni yaratdı ki, onlar bir-birinin qayğısına qalsınlar, bir-birinə dəstək olsunlar, övladları olsun və bir-birini Allah bizi sevdiyi kimi sevsinlər.



## İŞ VƏRƏQİ

Kiçik uşaqlar Adəm və Həvvanı rəngləndirməlidirlər. Adəm tək olduğu üçün şəkildə kədərlidir. Həvvanın şəklini çəkib rənglədikdən sonra Adəmin üzündə təbəssüm yaradın.

Böyük uşaqlar öz ailələrinin şəklini çəksinlər. Onlara ailələrinin bir hissəsi hesab etdikləri qohum olmayan insanları da şəklə əlavə edə bilərlər.



## ƏSAS AYƏ

*Rəbb Allah dedi: "İnsanın tək olması yaxşı deyil".*
*Yaradılış 2:18a*



Rəbb Allah dedi: “İnsanın
tək olması yaxşı deyil”

Yaradılış 2:18a



# ALLAH BİZƏ ONUN YARATDIQLARINA BAXMAQ VƏ QAYĞISINA QALMAQ TAPŞIRIĞINI VERDİ

Deditos
EVDƏ EDİLƏCƏK DƏRSLƏR





## VİDEOYA BAXIN

Uşaqlarla birlikdə "Allah dünyanı yaratdı" adlı videoya baxın. Bunu aşağıdakı linkdə tapa bilərsiniz:
https://vimeo.com/showcase/4770708/video/210999824



## MÜZAKİRƏ ÜÇÜN

Bunu ucadan oxuyun: **Allah insanların üzərinə insanlar və heyvanlar da daxil omaqla, Onun yaratdıqlarının qayğısına qalmaq məsuliyyətini qoydu.**
Uşaqlardan soruşun: **Dünyanın, heyvanların və ya öz evinizin qayğısına qalmaq üçün nə edə bilərsiniz?** Hər bir uşağa edə biləcəyi konkret iş barədə düşünmək üçün kömək edin. Məsələn, onlar ev heyvanlarını yedirdə, toxumlar əkə, həyətdəki və ya bağdakı bitkilərə su verə, zibilləri yığışdıra və ya suya qənaət edə bilərlər. Sonra uşaqlara kömək edin ki, fikirləşdikləri işi yerinə yetirsinlər.



## İŞ VƏRƏQİ

Uşaqlara təklif edin yaradıcılıq işləri vasitəsilə Allahın yaratdıqlarının qayğısına qalmaq üçün nə etmək qərarına gəldiklərini ifadə etsinlər.
Böyük uşaqlar etmək istədiklərinin şəklini çəkə bilərlər. Kiçik uşaqlar şəkli kəsib səhifənin sağ tərəfinə yapışdıra bilərlər yaxud da sizdən onlar üçün şəkil çəkməyinizi və ayrılmış yerdə nə etmək istədiklərini yazmağınızı xahiş edə bilərlər.




## ƏSAS AYƏ

*Rəbb Allah insanı götürüb Eden bağına qoydu ki, ona qulluq etsin və onun qayğısına qalsın.* Yaradılış 2:15

BUNUN KİMİ DAHA ÇOX DƏRSİ, ELƏCƏ DƏ VİDEOLARI BU LİNKDƏ TAPA BİLƏRSİNİZ. http://bit.ly/deditos-lessons

Adəm və Həvva Eden bağının qayğısına qalırdılar.

Mən də ______________ ____________ qayğısına qalmaq istəyirəm.





Allah Dünyanı Yaratdı

Dərs 5

Mən nə etmək istəyirəm:

____________________________

____________________________

Rəbb Allah insanı götürüb Eden bağına qoydu ki, oranı becərsin və saxlasın. Yaradılış 2:15